"AZƏRSU" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

# BÜLLETEN

№ 03 (50) ● Aprel 2017-ci il   w w w . a z e r s u . a z   Qaynar xətt - 955

"Su həyat deməkdir,
təmiz su sağlam
həyat deməkdir"

*İlham Əliyev*

# Xəzərdən başlayan su səyahəti




*səh. 2*

## *IV İslam Həmrəyliyi Oyunları İslam dünyası üçün mötəbər idman təntənəsidir*

## Fransa hökuməti FASEP layihəsi çərçivəsində "Azərsu" ASC-yə 700 min avro qrant ayırmışdır



*səh. 5*

## 2017-ci ilin I rübünün yekunlarına həsr olunmuş iclas keçirilmişdir



*səh. 6-8*

## Bakı şəhərində yağış suları ilə bağlı layihələr həyata keçiriləcək



*səh. 9*

# Xəzərdən başlayan su səyahəti

## *IV İslam Həmrəyliyi Oyunları İslam dünyası üçün mötəbər idman təntənəsidir*




***Aprelin 5-də Bakıdakı Daş Salnamə Muzeyində "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarının Xəzərdən başlayan su səyahətinə start verilib.***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, "Bakı-2017" İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinin sədri xanım Mehriban Əliyeva, ailə üzvləri, Səudiyyə Ərəbistanı Krallığının Şahzadəsi, İslam Həmrəyliyi İdman Federasiyasının prezidenti və Səudiyyə Ərəbistanı Milli Olimpiya Komitəsinin prezidenti Abdullah bin Mosaad bin Əbdüləziz Əl Səud mərasimdə iştirak ediblər.

**Prezident İlham Əliyev** mərasimdə çıxış edərək bildirmişdir ki, IV İslam Həmrəyliyi Oyunlarının Bakıda keçirilməsi böyük şərəfdir. Oyunlarda 57 ölkədən 3 mindən çox idmançı iştirak edəcəkdir ki, bu da İslam Oyunlarının tarixində bir rekorddur. *"İslam Həmrəyliyi Oyunlarının rəmzi sudur. Su həyat deməkdir. Təbiət və insan susuz yaşaya bilməz. Azərbaycan füsunkar təbiətə malik bir ölkədir. Gözəl göllərimiz, çaylarımız, bulaqlarımız, şəlalələrimiz, gözəl Xəzər dənizimiz bizim təbii sərvətimizdir. Bu gün Xəzərin sahilindən ölkəmizin müxtəlif istiqamətlərinə böyük səyahət başlayır. Su, əslində bir rəmzdir və Oyunların rəmzi məhz sudur. Hesab edirəm ki, bu seçim yüksək qiymətə layiq olmalıdır. Qoy, bizim yolumuz su kimi aydın, niyyətimiz su kimi təmiz olsun".*

Sonra Səudiyyə Ərəbistanı Krallığının Şahzadəsi, İslam Həmrəyliyi İdman Federasiyasının prezidenti və Səudiyyə Ərəbistanı Milli Olimpiya Komitəsinin prezidenti Abdullah bin Mosaad bin Əbdüləziz Əl Səud, Azərbaycanın ev sahibliyi edəcəyi IV İslam Həmrəyliyi Oyunlarına hazırlıq işlərinin tam qaneedici olduğunu bildirmiş və təşəkkürlərini ifadə etmişdir.

Qeyd edək ki, "Bakı-2017" İslam Həmrəyliyi Oyunlarının səyahəti su ünsürünə həsr olunub. Çünki su hər bir canlı üçün həyat mənbəyidir. Paklıq və birlik rəmzi olan suyun İslamda böyük mənəvi dəyəri var. Su Xəzər dənizinin sahilində yerləşən Bakı üçün də xüsusi əhəmiyyəti ilə seçilir.

Prezident İlham Əliyev Xəzər dənizindən götürülmüş suyu özləri ilə aparmaq üçün Azərbaycanın bütün guşələrindən gəlmiş uşaqlara təqdim etdi.

Ölkənin 15-dən çox tarixi şəhərini, 5 gölü, 1 su anbarını, 3 çayı, 1 bulağı, 3 şəlaləni və Xəzər dənizini əhatə edən su səyahəti bununla da 3 min kilometrdən çox məsafəni qət edəcək. Azərbaycanın müxtəlif guşələrində böyük təbii gözəlliyə malik 15 su məkanının hər birində iki atletin müşayiəti ilə yerli uşaq xüsusi mərasimdə mis qabı su ilə dolduracaq.

"Xəzərdən başlayan səyahət" mayın 12-də Bakıda IV İslam Həmrəyliyi Oyunlarının açılış mərasimi ilə başa çatacaq. Həmin vaxt uşaqlar ölkənin göl və çaylarından, şəlalə və bulaqlarından topladıqları Azərbaycanın saf suları ilə İslam dünyasının 50-dən çox dövlətindən olan idmançıları salamlayacaqlar.

IV İslam Həmrəyliyi Oyunları həm ölkəmiz, həm də İslam aləmi üçün çox önəmli idman yarışı olacaq. Bu Oyunlar bir daha göstərir ki, Azərbaycan dünya miqyasında çox böyük hörmətə malik ölkədir. Digər tərəfdən, indiyə qədər Azərbaycanda bütün mötəbər beynəlxalq tədbirlərin yüksək səviyyədə baş tutması, birinci Avropa Oyunlarında qazanılan möhtəşəm qələbələr İslam Həmrəyliyi Oyunlarının da uğurla keçiriləcəyinə təminat verir. Bunu isə ölkəmizin qədim tarixi, zəngin mədəniyyəti, beynəlxalq miqyasdakı nüfuzu və inkişafı şərtləndirir.



# İçməli su layihələri tam icra edilməlidir

***Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunanı clasık eçirilib.***

İclasda çıxış edən Prezident İlham Əliyev 2017-ci ilin birinci rübündə iqtisadi inkişafın təmin olunduğunu, sosial məsələlərin həllini tapdığını, ordu quruculuğunun uğurla getdiyini bildirmişdir.

İqtisadiyyatın əsas göstəricilərinə nəzər salan dövlət başçısı ilin ilk 3 ayı ərzində qeyri-neft sektorunun 2,4 faiz, qeyri-neft sənayesinin 2 faiz, kənd təsərrüfatının 3,5 faiz, bitkiçiliyin 20 faizdən çox artdığını bildirmişdir. Birinci rübdə valyuta ehtiyatlarının 1 milyard dollar artaraq 38,5 milyard dollar təşkil etdiyini deyən dövlət başçısı bunu önəmli məsələ adlandırmışdır. Bu ilin 3 ayı ərzində ticarət dövriyyəsi 15 faiz, ixrac 50 faiz, qeyri-neft ixracı 10 faiz artıb, idxal isə 17 faiz azalıb. İdxalın azalması, ixracın kəskin artması iqtisadi sabitliyimizi təmin edir. Ticarət dövriyyəsinin müsbət saldosu 1 milyard dollar səviyyəsindədir.

Sonra müdafiə sənayesi naziri Yavər Camalov, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov, "Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev çıxış etmişdilər.

İclasa yekun vuran Prezident İlham Əliyev 2017-ci ilin ilk aylarının yaxşı nəticələrlə yekunlaşdığını bildirmişdir. Dövlət büdcəsinin icrasının uğurla getdiyini, builki investisiya proqramının tam şəkildə icra edilməsinin vacibliyini, ölkə üçün ən lazımlı layihələrə vəsaitin ayrıldığını, maliyyə vəziyyətinin yaxşı olduğunu bildirən dövlət başçısı valyuta ehtiyatların xarici borcdan 5 dəfədən çox olduğunu söylədi və bunu yaxşı nəticə adlandırmışdır.



Diqqətə çatdırmışdır ki, bu il inşaat sektorunda canlanma müşahidə edilir. Bakıda 300-dən çox yeni hündürmərtəbəli bina tikilir və minlərlə yeni iş yeri yaradılır.

Rayonlarda sənaye zonalarının yaradıldığını deyən dövlət başçısı kənd təsərrüfatının inkişafı üçün bu il 150 min hektar yeni torpağın suvarılmasının nəzərdə tutulduğunu, yeni zavodların istifadəyə veriləcəyini qeyd etdi və görüləcək işlərin bu sahədə artıma səbəb olacağını vurğulamışdır. Qeyri-neft sektorunun istehsal etdiyi məhsulların ixracı ilə bağlı məsələyə toxunan dövlət başçısı Azərbaycan brendinin dünyada təbliğ edildiyini, müxtəlif ölkələrdə ticarət evlərinin yaradıldığını, ticarət-ixrac missiyalarının həyata keçirildiyini qeyd etmişdir.

Prezident İlham Əliyev bildirmişdir ki, il ərzində infrastruktur layihələrinin icrasına diqqət yetiriləcək: *"İçməli su layihələri nəzərdə tutulan investisiya həcmində tam icra edilməlidir. Eyni zamanda, bu il biz kəndlərdə yaşayan əhalinin təmiz içməli su ilə təmin edilməsi üçün 270 kiçik layihə icra edəcəyik. Bu təmizləyici qurğuların 170 kənddə quraşdırılması "Azərsu" ASC-nin, 100 kənddə isə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin xətti ilə təmin ediləcək. Müvafiq Sərəncam imzalanmışdır. Bütün kəndlərin adları bu Sərəncamda göstərilmişdir. Mən xüsusilə belə tapşırıq verdim ki, həm o kəndlərin sakinləri, həm bu işi icra edənlər bilsinlər, bu məsələ nəzarət altındadır. Əgər sadəcə o Sərəncamda yazılsaydı ki, 100 və ya 200 kəndin su problemi həll edilsin, buna filan qədər vəsait ayrılsın, sonra ona nəzarət etmək çox çətin olacaqdı: 100 kəndəmi, yoxsa 50 kəndə su verildi? Sərəncamda bütün o rayonların, kəndlərin adı göstərilib və mən o kəndlərin sakinlərindən xahiş edirəm ki, onlar da nəzarət etsinlər. Götürsünlər o Sərəncamı baxsınlar. Əgər onların kəndi o siyahıda varsa və o iş görülmürsə dərhal yerli icra orqanlarına, Prezident Administrasiyasına məlumat versinlər. Əlbəttə ki, əgər o işdə hansısa bir qüsur olarsa, buna yol verən şəxslər müvafiq qaydada cəzalandırılacaqlar. Mən bunu ona görə deyirəm ki, ictimai nəzarət güclənsin. Mən dəfələrlə bu barədə demişəm ki, ictimai nəzarəti gücləndirmək üçün gərək ictimaiyyətdə məlumat olsun. Bax, bu məlumatı biz veririk, 270 kəndin modul tipli təmizləyici qurğularla təmin edilməsi bu il başa çatmalıdır, vəsait ayrılıb və nəzarət də olmalıdır".*

Bölgələrdə məşğulluğun artırılmasının daim diqqətdə saxlanılmasının vacibliyini bildirən dövlət başçısı sahibkarlığın inkişafı ilə bağlı güzəştli kreditlərin verilməsi prosesinin davam edəcəyini diqqətə çatdırmışdır. Qeyd etdi ki, xarici sərmayələrin cəlb edilməsi ilə bağlı daha fəal iş aparılmalıdır. Bu il Quba və Mingəçevirdə "ASAN xidmət" mərkəzlərinin açılacağını deyən Prezident İlham Əliyev Şəki və İmişlidə də belə mərkəzlərin binalarının tikintisinin aparıldığını diqqətə çatdırmışdır.

# "Azərsu" ASC-də IV İslam Həmrəyliyi Oyunlarına hazırlıq işləri davam etdirilir

***2017-ci ilin 12-22 may tarixlərində Bakı şəhərində IV İslam Həmrəyliyi Oyunları keçiriləcək. İdmançılarla yanaşı, nümayəndə heyətləri və xarici turistlərin ölkəmizə gəlməsi nəzərə alınaraq tədbirin yüksək səviyyədə təşkili mühüm əhəmiyyət kəsb edir.***

Oyunların keçirilməsi ilə əlaqədar qonaqlar üçün ayrılmış mehmanxanalarda, olimpiya idman şəhərciyində, digər idman obyektlərində içməli su təchizatı və tullantı sularının axıdılması xidmətlərinin təmin edilməsi məqsədi ilə "Azərsu" ASC-də müvafiq komissiya yaradılmışdır.

IV İslam Həmrəyliyi Oyunlarına hazırlıqla bağlı "Azərsu" Açıq Səhmdar Cəmiyyətində toplantı keçirilib. **"Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynov** bildirib ki, son illər nüfuzlu beynəlxalq təbirlərə və idman yarışlarına ev sahibliyi edən ölkəmizin paytaxtı Bakı şəhərində may ayında IV İslam Həmrəyliyi Oyunları, iyun ayında isə Formula 1 yarışları keçiriləcək: *"Bu mötəbər yarışların 2015-ci ildə keçirilmiş I Avropa Oyunları və 2016-cı ildə keçirilmiş Formula 1 yarışlarındakı kimi yüksək səviyyədə təşkilini təmin etmək üçün digər təşkilatlar kimi "Azərsu" ASC-nin də qarşısında mühüm vəzifələr durur. Verilmiş tapşırıqları vaxtında və keyfiyyətlə icra etmək üçün Səhmdar Cəmiyyətin müvafiq struktur bölmələri tərəfindən mühüm tədbirlər görülüb və bu sahədə işlər davam etdirilməkdədir. Ötən illərdə keçirilmiş tədbirlərdə qazanılmış təcrübədən istifadə etməklə işlər operativ qaydada yerinə yetirilməli, idman, ictimai-iaşə obyektləri və mehmanxanalar keyfiyyətli içməli su ilə təmin edilməlidir".*

IV İslam Həmrəyliyi Oyunlarının keçirilməsi ilə əlaqədar **yaradılmış komissiyanın sədri, "Azərsu" ASC sədrinin birinci müavini Teyyub Cabbarov** mütəmadi olaraq komissiyanın iclaslarının keçirildiyini xatırladaraq görülmüş işlər barədə məlumat verdi. *"Oyunların keçirilməsi ilə əlaqədar Bakı Sukanal, rayon sukanal idarələrinin rəhbərlərinə hidrotexniki qurğuların, su və kanalizasiya xətlərinin, quyu və barmaqlıqların vəziyyəti ilə bağlı ətraflı araşdırmaların aparılması, görüləcək təmir işləri və digər tədbirlər barədə komissiyaya məlumat verilməsi tapşırılıb. Qısa müddətdə hər bir rayon üzrə təhlillər aparılıb, hidrotexniki qurğuların və şəbəkələrin vəziyyəti, görülməli işlər barədə məlumat əldə olunub. Eyni zamanda Bakı şəhəri üzrə 3 ixtisaslaşmış qəza briqadalarının yaradılması və oyunların keçiriləcəyi günlərdə onların, eləcə də rayon sukanal idarələrinin qəza xidmətlərinin fasiləsiz fəaliyyət göstərmələri üçün lazımi tədbirlər görülüb. Həmin günlərdə xidmət göstərəcək maşın, xüsusi texnika və avadanlıqların texniki vəziyyəti qiymətləndirilib, lazım olan ehtiyat hissələri, mal və material tədarük olunub. Bunlarla yanaşı, Cəmiyyətin mütəxəssisləri tərəfindən idman obyektlərinin və qurğularının su təchizatı və kanalizasiya sistemlərinin vəziyyəti bir daha yoxlanılıb.*

*Mərkəzi Laboratoriyanın səyyar laboratoriya kimi fəaliyyət göstərən nəqliyyat vasitələrindən istifadə olunmaqla 100-dən çox obyektdən su nümunələri götürülərək analiz olunub. Yarışların keçiriləcəyi günlərdə "Azərsu" ASC-nin inzibatı binasında 24 saat fəaliyyət göstərən qərargah işləyəcək, eyni zamanda yerlərdə növbətçilik təmin olunacaq".*

İclasda çıxış edən Nəqliyyat və Xüsusi Texnika İdarəsinin rəisi Xürrəm Hüseynov, Xəzər rayon Sukanal İdarəsinin rəisi Mübariz Nəsirov, Səbail rayon Sukanal İdarəsinin rəisi Rauf Osmanov, "Sutikinti" Müəssisəsinin rəisi Səid Salayev IV İslam Həmrəyliyi Oyunlarına hazırlıqla bağlı görülmüş işlər barədə məlumat verdilər.



"Azərsu" ASC-nin sədri Q.Hüseynov ixtisaslaşmış briqadaların peşəkar kadr, maşın-mexanizm və avadanlıqlarla tam komplektləşdirilməsi, lazımi anbar ehtiyatlarının yaradılması ilə bağlı əlavə tədbirlərin görülməsi, mərkəzi idarə aparatında və yerlərdə növbətçiliyin, həmçinin şəhərdə avtomobil sıxlığının tənzimlənməsi ilə bağlı Nazirlər Kabinetinin sərəncamına uyğun olaraq işçilərin pilləli iş rejiminin təmin olunması barədə tapşırıqlar verdi.

*Aprelin 19-da "Azərsu" ASC-də "Suez Environnement" şirkətinin nümayəndə heyəti ilə görüş keçirilmişdir. Görüşdə Fransanın Azərbaycandakı səfiri Orelya Buşes və Dünya Bankının nümayəndələri iştirak etmişlər.*

# Fransa hökuməti FASEP layihəsi çərçivəsində "Azərsu" ASC-yə 700 min avro qrant ayırmışdır



"Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynov Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihələri barədə məlumat verərək bildirmişdir ki, bu sahədə dünyanın qabaqcıl şirkətlərinin təcrübəsindən istifadə olunur. "Azərsu" ASC-nin sədri Fransanın "Suez Environnement" şirkəti ilə geniş əməkdaşlıq edildiyini, kadr hazırlığı, təcrübə mübadiləsi sahəsində mühüm nailiyyətlər əldə olunduğunu vurğulamışdır.

Fransanın Azərbaycandakı səfiri Orelya Buşes iki ölkə arasında bütün sahələrdə əlaqələrin yüksələn xətlə inkişaf etdiyini bildirmişdir. O. Buşes Fransa şirkətlərinin Azərbaycanda həyata keçirilən infrastruktur layihələrini yüksək qiymətləndirmiş və yeni texnologiyaların tətbiqi sahəsində əməkdaşlığın qarşılıqlı əlaqələrə töhfə verəcəyini diqqətə çatdırmışdır.

"Suez Environnement" şirkətinin layihə rəhbəri Kristian Monset Fransa İqtisadiyyat Nazirliyinin FASEP layihəsi üçün 700 min avro qrant ayırdığını bildirmişdir. Bu layihə 2 hissədən - su sızmalarının aşkarlanması və lildən enerjinin əldə olunmasından ibarətdir. FASEP çərçivəsində Bakı şəhərində içməli su itkilərinin azaldılmasına dair pilot layihə icra ediləcək. Eyni zamanda Hövsan Aerasiya Stansiyasında lildən enerjinin əldə olunması üçün metanlaşdırma qurğusunun texniki-iqtisadi əsaslandırması hazırlanacaq. Layihənin icrası 2018-ci ilin aprelində başa çatacaq.

Xatırladaq ki, 1858-ci ildə təsis olunan "Suez Environnement" şirkəti yaşıllaşdırma, tullantıların emalı və təkrar istifadəsi, alternativ enerji və insan resursları sahəsində ixtisaslaşmışdır. Hazırda dünyanın 70-dən çox ölkəsində layihələr həyata keçirir.

12 may 2014-cü ildə "Azərsu" ASC və "Suez Environnement" şirkəti arasında "Praktiki təlim, nou-hau ötürülməsi və texniki yardıma dair müqavilə" imzalanmışdır. Müqaviləyə əsasən, 5 il ərzində 38 ixtisas üzrə 4500 nəfərin kadr hazırlığı prosesinə cəlb olunması, 250 peşəkar təlimçinin hazırlanması nəzərdə tutulmuşdur.

Ötən müddətdə "Azərsu" ASC-nin mütəxəssislərinin bir qismi Böyük Britaniya, Fransa, Əlcəzair, Mərakeş, İspaniya və Çində təşkil edilmiş tədris ekspedisiyalarına göndərilmişlər.

# Mərkəzi Laboratoriya səriştəlilik testi üzrə sertifikat almışdır


Laboratory of Excellence

Azersu Central Laboratory

February 2017 WP ERA Proficiency Testing Round 265

ERA

"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin Mərkəzi Laboratoriyası öz fəaliyyətini beynəlxalq standartların tələblərinə uyğun davam etdirir. 2015-ci ildə Latviya Dövlət Akkreditasiya Qurumu (LATAK) tərəfindən beynəlxalq akkreditasiyadan keçmiş Mərkəzi Laboratoriya hər il akkreditasiya sahəsinə daxil olan metodların sayını artırır. Dünyanın inkişaf etmiş ölkələrində fəaliyyət göstərən laboratoriyaların təcrübəsi əsas götürülərək beynəlxalq səriştəlilik testi proqramlarına qoşulur.

Mərkəzi Laboratoriyanın Tullantı Suların Mikrobioloji Analizlərinin Aparılması şöbəsinin analiz metodları Amerikanın ERA şirkəti tərəfindən təşkil olunan səriştəlilik testi proqramına təqdim edilmişdir. Dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən 356 laboratoriyanın iştirak etdiyi səriştəlilik testi proqramında Mərkəzi Laboratoriyada tullantı sularında aparılan mikrobioloji analizləri 100 faiz nəticə toplayaraq fərqlənmə sertifikatı ilə təltif olunmuşdur.

Bu nailiyyət Mərkəzi Laboratoriyada analizlərin yüksək keyfiyyətlə aparılmasının, burada tətbiq olunan metodların düzgünlüyünün, kadrların peşəkarlığının göstəricisidir.

Qeyd edək ki, "Azərsu" ASC-nin Mərkəzi Laboratoriyası 16 sentyabr 2013-cü ildə fəaliyyətə başlamışdır. Ümumi sahəsi 1800 kvadratmetr olan laboratoriya binası içməli su və tullantı suları bölmələrindən ibarətdir. Laboratoriyada Almaniya, Fransa, ABŞ, Yaponiya və digər ölkələrin beynəlxalq səviyyədə tanınmış şirkətlərinin avadanlıqları və cihazları quraşdırılmışdır. Bu cihaz və avadanlıqların köməyi ilə içməli su və tullantı sularının fiziki-kimyəvi və bakterioloji göstəricilərini təyin etmək, operativ, dəqiq və etibarlı analizlər aparmaq mümkündür. İstənilən ərazidə və şəraitdə analizlərin aparılması məqsədilə səyyar laboratoriya kimi fəaliyyət göstərən 6 xüsusi təyinatlı nəqliyyat vasitəsi alınmışdır.

# 2017-ci ilin I rübünün yekunlarına




*Aprelin 26-da "Azərsu" Açıq Səhmdar Cəmiyyətində 2017-ci ilin yanvar-mart ayları üzrə fəaliyyətinin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclas keçirilmişdir.*

İclası giriş sözü ilə açan **"Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynov** bildirmişdir ki, Prezident İlham Əliyev tərəfindən həyata keçirilən sosial-iqtisadi siyasət nəticəsində 2017-ci ilin birinci rübündə Azərbaycanda dinamik inkişaf təmin olunmuşdur. Qlobal iqtisadi böhranın təsirlərinə baxmayaraq sosial və infrastruktur layihələrinin icrasıd avame tdirilmişdir.

"Azərsu" ASC-nin sədri 14-18 mart 2017-ci il tarixlərində Bakı şəhərində keçirilmiş 1-ci Bakı Beynəlxalq Su Həftəsini və Şollar-Bakı Su Qurğuları Kompleksinin 100 illik yubileyini əhəmiyyətli hadisələr kimi qiymətləndirmiş, bu tədbirlərin su sektorunda mövcud problemlərin öyrənilməsi və onların həlli yollarının müəyyənləşdirilməsi baxımından səmərəli olduğunu diqqətəç atdırmışdır.

Q.Hüseynov istehlakçılara göstərilən içməli su təchizatı və kanalizasiya xidmətlərinin yaxşılaşdırılması istiqamətində mühüm layihələrin həyata keçirildiyini vurğulamışdır: *"Cari ilin birinci rübündə Saatlı şəhərinin su təchizatı sistemlərinin yenidən qurulması işləri başa çatmış və Prezident İlham Əliyevin iştirakı ilə açılış mərasimi keçirilmişdir. Əhalinin içməli su ilə təminatının yaxşılaşdırılması istiqamətində görülən tədbirlərin davam etdirilməsi məqsədi ilə Prezident İlham Əliyevin imzaladığı sərəncama əsasən, 22 rayonun 267 min nəfərdən çox əhalisi olan 170 yaşayış məntəqəsində içməli su təchizatı sistemlərinin qurulması üçün "Azərsu" ASC-yə 14 milyon manat ayrılmışdır. Hacıqabul rayonunun Navahı qəsəbəsində yeni su təchizatı sistemləri yaradılmış və 2300 nəfərin içməli su təchizatı yaxşılaşdırılmışdır. Əkin sahələrinin suvarma suyu ilə təmin edilməsi məqsədilə Zərdab, Hacıqabul və Şamaxı rayonlarında suvarma layihələrinin icrasına başlanılmışdır".*

Qeyd olunmuşdur ki, 2017-ci ilin yanvar-mart aylarında istehlakçılara 57 milyon kubmetr həcmində su verilmiş, 41 milyon kubmetr həcmində kanalizasiya xidmətləri göstərilmişdir. Hesabat dövründə 38,4 km içməli su, 71 km kanalizasiya xətləri çəkilmiş, 3 su anbarı tikilmiş, 6 ədəd subartezian quyusu qazılmışdır. Görülmüş işlər nəticəsində 70 min nəfər ilk dəfə mərkəzləşdirilmiş qaydada içməli su ilə təmin edilmiş, 69 min nəfərin su təchizatı fasiləsiz rejimə keçirilmişdir. Beləliklə fasiləsiz rejimdə su təchizatı səviyyəsi ölkə üzrə 65,9 faiz, Bakı şəhəri üzrə isə 80,8 faiz təşkil etmişdir.

Sonra 2017-ci ilin yanvar-mart ayları ərzində görülmüş işlər və həyata keçirilmiş tədbirlər barədə çıxışlar olmuşdur.

**"Azərsu" ASC-nin sədr müavini Etibar Məmmədov** çıxış edərək bildirmişdir ki, Zərdab, Hacıqabul və Şamaxı rayonlarında 20 min hektar yeni əkin sahələrinin su ilə təmin olunması məqsədilə layihələrin icrası uğurla davam etdirilir. Zərdab rayonunda ümumi uzunluğu 15 km olan magistral su kəmərinin inşası başa catmış, nasos stansiyasının inşası isə yekunlaşdırılır. Padarçöl ərazisində də 27 km magistral su kəmərinin inşası ilə bağlı tikinti-quraşdırma işlərinə başlanılmışdır.

Ötən dövrdə Xaçmaz şəhərində layihənin icrası nəticəsində su şəbəkəsi üzrə 73 faiz, kanalizasiya şəbəkəsi üzrə 81 faiz, Xızı şəhərində su şəbəkəsi üzrə 16 faiz, kanalizasiya şəbəkəsi üzrə 46 faiz yerinə yetirilmiş, Qobustan şəhərində isə şəbəkələrin tikintisi yekunlaşmaq üzrədir.

Dünya Bankının layihəsi üzrə Saatlı, Sabirabad, Şamaxı və Qəbələ şəhərlərində su təchizatı üzrə işlər yekunlaşmışdır. Hazırda Şamaxı və Qəbələ şəhərlərində tullantı su təmizləyici qurğuların inşası davam etdirilir.

Almaniya İnkişaf Bankı ilə birgə maliyyələşdirilən layihələr çərçivəsində Şəki və Gəncədə şəbəkələrin tikintisi işləri aparılır. Gəncə-4 layihəsi çərçivəsində 166 km su və 141 km kanalizasiya xəttinin inşası nəzərdə tutulmuşdur.

İslam İnkişaf Bankı ilə birgə maliyyələşdirilən layihələr üzrə Gədəbəy şəhərində su və kanalizasiya şəbəkəsinin tikintisi başa çatdırılmışdır. Hazırda abonentlərə ev birləşmələrinin verilməsi, su anbarlarında son tamamlama işləri həyata keçirilir. Daşkəsən şəhərində su və kanalizasiya şəbəkəsinin tikintisi yekunlaşmış, 1800 ədəd ev birləşməsi verilmişdir. Hazırda tullantı su təmizləyici qurğunun inşası davam etdirilir və cari ilin sonuna yekunlaşdırılması planlaşdırılır.

# həsr olunmuş iclas keçirilmişdir



2017-ci ildə Qazax şəhərinin su təchizatı və kanalizasiya sisteminin, həmçinin Gədəbəy, Tərtər və Qazax şəhərlərində tullantı su təmizləyici qurğularının inşası işlərinə başlanılması nəzərdə tutulmuşdur. Eyni zamanda cari ildə Şamaxı, Qəbələ, Gədəbəy, Qobustan, Xaçmaz, Daşkəsən şəhərlərində və Badamdar qəsəbəsində su və kanalizasiya sisteminin tikintisinin yekunlaşdırılması planlaşdırılır.

Yaxın günlərdə 170 kənddə su kəmərlərinin inşası və bulaqların quraşdırılması işlərinə, həmçinin Xırdalan şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması layihəsinin crasınab aşlanılacaqdır.

**"Azərsu" ASC-nin sədr müavini Köçərli Həsənov** qeyd etmişdir ki, hazırda Abşeron yarımadası üzrə 2 milyon 964 min nəfərə içməli su xidmətləri göstərilir ki, onların da 2 mln 326 mini və ya 78,4 faizi, Bakı şəhərində isə 1 892 mini və ya 80,8 faizi fasiləsiz su ilə təmin edilir. 2017-ci ilin 1-ci rübündə Abşeron yarımadasında 51 min nəfər ilk dəfə mərkəzləşmiş qaydada su almış, 10,2 min nəfərin su təchizatı qrafiki yaxşılaşdırılmış, 44,3 min nəfərin su təchizatı 24 saatlıq rejimə keçirilmişdir. Bu dövrdə Qaradağ, Nəsimi və Nərimanov rayonlarında 14 nasos stansiyasının fəaliyyəti dayandırılmışdır. Bu tədbirlər elektrik enerjisi və istismar xərclərinə qənaətə, yararlı elektrik və mexaniki avadanlıqlardan digər nasosxanalarda istifadəsinə imkan verir.

Hesabat dövründə 9 ədəd su anbarının fəaliyyəti dayandırılmışdır. Cari ilin 3 ayında Bakı şəhərində 648 çoxmənzilli yaşayış binasının zirzəmisində su qəzası baş vermişdir ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 305 qəza çoxdur. Təmir işləri zamanı zirzəmilərdə 931 metr su xətti dəyişdirilmişdir. Ötən ilin eyni dövrü ilə müqayisədə Abşeron yarımadasında enerji sərfiyyatı 887 min kVt/saat azalmışdır.



Hazırda ölkə əhalisinin 31,8 faizi, Abşeron yarımadası üzrə isə əhalinin 71,3 faizi kanalizasiya xidmətləri ilə təmin olunmuşdur. Birinci rübdə 222 km kanalizasiya xətləri, 19 min 530 ədəd yağış və kanalizasiya quyuları və 4 min 155 ədəd yağış barmaqlıqları müxtəlif çöküntülərdən təmizlənmiş, təmir bərpa işləri aparılmışdır. Eyni zamanda 691 binanın zirzəmisində mövcud kanalizasiyax ətlərit əmired ilmişdir.

**İşlər İdarəsinin rəisi Möhsün Quliyev** bildirmişdir ki, birinci rübdə Cəmiyyət üzrə işçi sayı 157 nəfər azalaraq, aprelin 1-nə 12672 nəfər olmuşdur. İşçilərin 28 faizini qulluqçu, 72 faizini fəhlələr təşkil edir. Hesabat dövründə 189 nəfər işə qəbul olunmuş, 346 işçinin əmək müqaviləsinə xitam verilmişdir. Birinci rübdə 299 nəfər tərəfindən 200 nizam-intizam pozuntusu halı qeydə alınmışdır. Bu hallara görə 154 nəfərə intizam tənbehi, 51 nəfərə "Şiddətli töhmət" verilmiş, 2 nəfərin ixtisas dərəcəsi endirilmiş, 15 nəfərin əmək haqqından tutulma tətbiq edilmiş, 11 nəfər Əmək Məcəlləsinin 70-ci maddəsinin "ç" bəndi ilə işdən azad edilmişdir. Eyni zamanda 77 nəfərə icra intizamını pozuntusu, işə gecikmə, icazəsiz işdən getmə və təhlükəsizlik texnikasını pozma halına görə xəbərdarlıq edilmişdir.

Hesabat dövründə keçirilmiş təlimlərdə 116 nəfərin iştirakı təmin edilmişdir. 2017-ci ilin 1-ci rübü üzrə "Azərsu" ASC-nin aparatında ümumilikdə 18262 sənəd dövriyyəsi qeydə alınmışdır ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1104 ədəd azdır.

Hesabat dövründə 153 nəfərə 87805 manat məbləğində maddi yardım göstərilmişdir. Eyni zamanda Saatlı rayonunda 1885 nəfərdən ibarət 474, Qazax rayonunda 3110 nəfərdən ibarət 860 məcburi köçkün ailəsinə Novruz bayramı ərəfəsində ərzaq yardımı edilmişdir.



M.Quliyev qeyd etmişdir ki, Bakıda IV İslam Həmrəyliyi Oyunları keçirilməsi ilə əlaqədar iş vaxtı rejimi may ayının 1-dən 30-dək pilləli şəkildə təşkil ediləcək. Həmin günlərdə işçilərin müəyyən edilmiş vaxtda işə gəlmələrinə, eyni zamanda tərtib olunacaq növbətçiliyə əməl edilməsinə ciddi nəzarət olunacaqdır.

**Mərkəzi Laboratoriyanın müdiri Elçin Əliyev** çıxışında qeyd etmişdir ki, 2017-ci ilin 1-ci rübündə 3662 su nümunəsindən 24301 parametri, 264 tullantı su nümunəsindən 1995 fiziki-kimyəvi və 352 mikrobioloji göstərici təyin edilmişdir. 2017-ci ildə Mərkəzi Laboratoriya akkreditasiya sahəsində olan metod sayını 16-dan 25-ə, göstərici sayını isə 21-dən 38-ə çatdırmışdır.



Birinci rübdə Mərkəzi Laboratoriya hüquqi və fiziki şəxslərə 7613 AZN dəyərində xidmət göstərmişdir. GFA Consulting, Kaspian Business Services, Ay Konsaltinq, Naftalan Otel şirkətləri ilə uzunmüddətli əməkdaşlıq müqavilələri imzalanmışdır. Daha çox müştəri cəlb olunması üçün mehmanxanalar üçün məlumatlandırıcı broşürlar hazırlanmış və müştərilərə təqdim edilmişdir.

Mərkəzi Laboratoriyada ağır metalları təyin etmək üçün istifadə olunan Agilent markalı İCP MS cihazı üzrə təlim keçirilmiş və cihaz tam istifadəyə verilmişdir. Həmçinin, Dünya Səhiyyə Təşkilatı və Avropa Birliyinin direktivinin tələblərinə əsasən, içməli su nümunələrində pestisidləri, trihalogenmetanları, polixlorlu bifenilləri və s. göstəriciləri təyin etmək üçün nəzərdə tutulan Agilent markalı Qaz xromatoqraf cihazının təlimi təşkil olunmuşdur.

2017-ci ildə Mərkəzi Laboratoriya Almaniyanın Fiziki Texniki İnstitutunun layihə proqramına, ABŞ-ın ERA və Böyük Britaniyanın LGC şirkəti tərəfindən təşkil olunan səriştəlilik testi proqramlarına qoşulmuşdur.

**Nərimanov rayon Sukanal İdarəsinin rəisi Rövşən Əliyev** hesabat verərək bildirmişdir ki, hazırda rayonda 61285 abonentə xidmət göstərilir ki, bunların da 57289-u əhali, 4536-sı qeyri-əhali abonentləridir. Hesabat dövründə fasiləsiz su təminatı ilə əlaqədar 9 nasosxananın fəaliyyəti dayandırılmışdır. Nasosxanaların dayandırılması nəticəsində ötən ilin müvafiq dövrünə nisbətən 443 500 kVt/saat elektrik enrjisinə və digər istismar, əmək haqqı xərclərinə qənaət edilmişdir.



Su itkilərinin qarşısının alınması məqsədi ilə 183 binanın damından 1807 çən, 71 binanın fasadından 451 ədəd su xətti və 110 binanın zirzəmisindən 764 ədəd su nasosu ləğv edilmişdir. Bunların nəticəsi olaraq rayon ərazisinin bir hissəsinin qidalandıran Binəqədi xətti ilə qəbul olunan suyun həcmi 40 min kubmetrdən 27 min kubmetrədək azalmışdır.

Yağıntılar zamanı yarana biləcək problemlərin qarşınının alınması məqsədi ilə Z.Bünyadov prospekti boyu və rayon ərazisindəki digər küçələrdə 579 ədəd barmaqlıq, 433 ədəd kanalizasiya quyusu, 6,5 km müxtəlif diametrli kanalizasiya və yağış xətləri mexaniki üsulla və maşın-mexanizm vasitəsi ilə təmizlənmişdir. Rayon ərazisində magistral və küçə şəbəkələrinin normal idarə olunması məqsədi ilə 3 ədəd yeni siyirtmə quraşdırılmış, 45 ədəd siyirtmə təmir edilmiş və 27 ünvanda nasosxanalara baypas xətləri çəkilmişdir.

**"Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynov** iclasa yekun vuraraq görüləcək işlər və qarşıda duran vəzifələr barədə tapşırıqlarını vermişdir. Bakı şəhəri və ətraf qəsəbələrdə, eləcə də regionlarda su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması istiqamətində işlərin davam etdiriləcəyini deyən Səhmdar Cəmiyyətin sədri yeni texnologiyaların tətbiqi ilə bağlı tədbirlərin davam etdirilməsinin vacibliyini bildirmişdir. "Azərsu" ASC-nin sədri iqtisadi səmərəliliyin artırılması, abunəçilərlə işin təkmilləşdirilməsi, sayğaclaşma işlərinin sürətləndirilməsi və digər məsələlərlə bağlı tapşırıqlar vermişdir. Qeyd olunmuşdur ki, Bakı şəhərində keçiriləcək IV İslam Həmrəyliyi Oyunları, Formula 1 yarışları ilə əlaqədar ölkəmizə xaricdən xeyli sayda idmançı və turistin gələcəyi nəzərə alınaraq idman yarışlarının keçiriləcəyi yerlərdə, turizm və iaşə obyektlərində içməli su və kanalizasiya sistemlərinin normal fəaliyyətinin təmin olunması diqqətdə saxlanılacaqdır.



# Bakı şəhərində yağış suları ilə bağlı layihələr həyata keçiriləcək

**Bakı şəhərində yağış sularının yığılma təhlükəsi olan avtomobil yolları və ərazilərdə səth sularının kənarlaşdırılması üçün kompleks tədbirlərin görülməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18 aprel 2017-ci il tarixli 264 nömrəli sərəncamı paytaxtın yağış suları infrastrukturunun təkmilləşdirilməsinə böyük imkanlary aradacaq.**

Sərəncama əsasən, 2017-ci ilin dövlət büdcəsindən "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə 14 milyon 700 min manat vəsait ayrılmışdır. Maliyyə Nazirliyinə həmin vəsaitin müəyyən olunmuş qaydada ayrılmasının təmin edilməsi tapşırılmışdır. Sərəncamda qeyd olunmuşdur ki, işlərin icrasına təcili başlanılması və qısa müddətdə başa çatdırılması zərurəti nəzərə alınaraq "Azərsu" ASC-yə müstəsna hal kimi , bu sahədə təcrübəsi olan layihəçi və podratçı təşkilatlarla birbaşa müqavilələr bağlamağa icazə verilir.



**AzərbaycanR espublikasıN azirlərK abinetinin18ap rel 2017-ci il tarixli 264 nömrəli sərəncamına əlavə**

| Sıra №-si | Layihələrinad ları |
|---|---|
| 1 | ZiyaB ünyadovp rospektib oyuk ollektorunt ikintisi( D=1200m m,u zunluğu L=1,8 km) |
| 2 | Nərimanov rayonu ərazisində Əliyar Əliyev küçəsi bopyu kollektorun tikintisi (D=1000 mm, uzunluğu L=0,3 km) |
| 3 | Böyükşorg ölününs əviyyəsinint ənzimlənməsiü çünk ollektorunt ikintisi( D=726m m,u zunluğu L=1,5 km) |
| 4 | Binəqədi şossesib oyuk ollektorunt ikintisi( D=600-1000m m,u zunluğu L=3,5 km) |
| 5 | Yasamal rayonu ərazisində Dadaş Bünyadzadə küçəsi boyu kollektorun tikintisi (D=1000 mm, uzunluğu L=2,3 km) |
| 6 | Sabunçur ayonu ərazisindək ollektorunt ikintisi( D=1200m m,u zunluğu L=1,5 km) |
| 7 | Məhəmmədi gölündə su səviyyəsinin tənzimlənməsi üçün kollektorun tikintisi (D=1000-1200 mm, uzunluğu L=4,7 km) |
| 8 | Taşağıl və Böyükşor gölünün su səviyyəsinin saxlanılması və su keyfiyyətinin yaxşılaşdırılması üçün sistemlərint ikintisi |
| 9 | Sabunçu rayonu ərazisində "Şuşa" şəhərciyinin ətraf ərazilərində yağış sularının kənarlaşdırılması üçün kollektorunt ikintisi( D=200-300m m,u zunluğu L=2,2 km) |
| 10 | Ramana Südçülük Sovxozunun ərazisində yağış sularının kənarlaşdırılması üçün kollektorun tikintisi (D=200-300m m,u zunluğu L=0,7 km) |
| 11 | Yasamal rayonunun Əhməd Cəmil küçəsi boyu yağış sularının kənarlaşdırılması üçün kollektorun tikintisi (D=600-800m m,u zunluğu L=2,2 km) |
| 12 | Xətai rayonunun Yusif Səfərov küçəsi boyu yağış sularının kənarlaşdırılması üçün kollektorun tikintisi (D=500 mm,u zunluğu L=4 km) |
| 13 | Xətai rayonunun Kazımağa Kərimov küçəsi boyu yağış sularının kənarlaşdırılması üçün kollektorun tikintisi (D=500m m,u zunluğu L=1,0 km) |
| 14 | Kollektorların tikintisi ilə əlaqədar müxtəlif təyinatlı mühəndis xətlərinin köçürülməsi və ya kollektorlarla kəsişmə xətlərininn izamlanması |

# Zərdab rayonunda suvarma layihəsinin icrası yekunlaşmaq üzrədir

*"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının üçüncü ilinin yekunlarına həsr olunan konfransda Prezident İlham Əliyevin ərzaq təhlükəsizliyinin və ixrac potensialının artırılmasının təmin edilməsilə bağlı tapşırıqlarına uyğun olaraq Zərdab rayonu ərazisində 10 min hektar ərazinin suvarma təminatının yaxşılaşdırılması layihəsinin icrası yekunlaşmaq üzrədir.*



İcrasına fevral ayında başlanmış layihəyə uyğun olaraq əkin sahələrinə su Kür çayından veriləcək. Bu məqsədlə çayın sahilində məhsuldarlığı saniyədə 3 kubmetr olan sugötürücü qurğunun, nasos stansiyasının, təzyiqqırıcı kameranın və magistral kəmərin inşası layihələndirilmişdir.

Əkin sahələrinə suyun nəqli diametri 1400 mm olan kəməri vasitəsi ilə həyata keçiriləcək. İşlərin qısa müddətdə başa çatdırılması məqsədilə boruların qaynaqlanması və torpağa basdırılması paralel olaraq 4 nöqtədə aparılmış və kəmərin tikintisi yekunlaşmışdır.

Sugötürücü qurğunun suyığıcı kamerasında betonlanma və məcraqoruyucu yamacların torpaqla bərkidilməsi işləri tam yekunlaşmışdır. Hazırda yamacların betonlanması üçün hazırlıq işləri görülür.

Nasos stansiyasında tikinti işləri yekunlaşma üzrədir. Burada giriş və çıxış kollektorları, siyirtmələr, 4 ədəd nasos quraşdırılmışdır. Qurğuları elektrik enerjisi ilə təmin etmək üçün Zərdab 35/10 kilovoltluq yarımstansiyasından 4 km elektrik xətti çəkilmiş, 81 ədəd dayaq quraşdırılmışdır.



Qeyd edək ki, "Azərsu" ASC Zərdab rayonu ilə yanaşı, Hacıqabul və Şamaxı rayonlarında, Padarçöl adlanan ərazidə 10 min hektar ərazidə suvarma layihəsinin icrasına başlamışdır. Bu ərazinin suvarılması Hacıqabul rayonunun Talış kəndi yaxınlığındakı Kür sutəmizləyici qurğularının imkanlarından istifadə etməklə aparılacaqdır. Bu məqsədlə təmizləyici qurğudan Padarçöl ərazisinə 27 km magistral kəmərin inşası layihələndirilmişdir.



# Gəncədə su və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin icrası müzakirə olunmuşdur




*Azərbaycan Respublikası hökuməti ilə Almaniyanın KfW Bankının birgə maliyyələşdirdiyi "Açıq Kommunal İnfrastruktur Proqramı II" layihəsi çərçivəsində Gəncə şəhərinin içməli su və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin növbəti 4-cü mərhələsi üzrə işlərə başlanılacaqdır. Bu məqsədlə Gəncə şəhərində layihənin icra vəziyyəti və gələcəkdə görüləcək işlərin müzakirəsi ilə bağlı tədbir keçirilmişdir. Tədbirdə "Azərsu" ASC-nin, Gəncə Şəhəri İcra Hakimiyyətinin rəsmiləri, podrat təşkilatlarının mütəxəssisləri iştirak etmişlər.*

"Azərsu" ASC sədrinin müavini Etibar Məmmədov Gəncə şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması istiqamətində mühüm işlər görüldüyünü diqqətə çatdıraraq şəhərə müxtəlif mənbələrdən suyun verilməsinin təmin edildiyini bildirmişdir. Qeyd olunmuşdur ki, hazırda Gəncə şəhərində su və kanalizasiya şəbəkələrinin tikintisi işləri davam etdirilir və layihə üzrə işlərin keyfiyyətlə icra olunması üçün bütün zəruri tədbirlər görüləcəkdir.

Gəncə Şəhər İcra Hakimiyyətinin rəsmiləri həyata keçirilən içməli su və kanalizasiya layihəsinin şəhərin sosial-iqtisadi inkişafına, əhalinin məişət şəraitinin yaxşılaşdırılmasına töhfələr verəcəyini bildirmişlər.

Sonra "Azərsu" ASC-nin Planlaşdırma və keyfiyyətə nəzarət departamentinin rəis müavini Elşad Cavadzadə "Gəncə şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi" çərçivəsində görülmüş işlərlə bağlı təqdimatla çıxış etmişdir. Qeyd olunmuşdur ki, layihə 2035-ci ilədək perspektiv inkişaf nəzərə alınmaqla 450 min nəfərin su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanmışdır. Layihə çərçivəsində Göygöl rayonunun Murovdağ qəsəbəsi, Hacıməlik və Mollacəlilli kəndlərinə də içməli su veriləcəkdir.

Gəncə şəhərini içməli su ilə təmin etmək üçün Göygöl, Qızılqaya mənbələri və Şəmkirçay su anbarı seçilmişdir. Layihənin birinci mərhələsi çərçivəsində işlərə 2011-ci ilin avqust ayında başlanılmış, Göygöl su mənbəyində məhsuldarlığı saniyədə 200 litr olan yeni drenaj sistemi yaradılmış, Gəncə şəhərində həcmi 4000 kubmetr olan su anbarı tikilmiş və mənbədən anbara qədər 24,3 km uzunluğunda magistral kəmər çəkilmişdir. Bu mərhələ üzrə tikinti işləri 2014-cü ilin fevral ayında başa çatdırılmışdır.



Layihənin ikinci mərhələsində Qızılqaya su mənbəyində bərpa-yenidənqurma işləri aparılmış, bu mərhələ çərçivəsində 4 km uzunluğunda magistral kəmər, ümumi tutumu 12000 kubmetr olan 3 ədəd anbar və 6,9 km uzunluğunda anbarlararası xətt inşa edilmişdir.

Gəncə şəhərinin içməli su tələbatının böyük hissəsi Şəmkirçay su anbarının yaxınlığında tikilən və məhsuldarlığı sutkada 140 min kubmetr olan sutəmizləyici qurğu hesabına təmin ediləcək. Layihəyə əsasən, bu mənbədən Gəncə şəhərinə saniyədə 1336 litr su veriləcək. 27,5 km uzunluğunda Şəmkirçay-Gəncə magistral kəmərinin inşası da başa çatdırılmışdır.

Gəncə şəhərinin içməli su və kanalizasiya şəbəkələrinin tikintisi mərhələlərlə həyata keçirilir. İndiyə qədər 855 km paylayıcı su xəttinin 105 km-lik hissəsi çəkilmiş 3500-dən çox ev birləşməsi verilmişdir. Eyni zamanda 813 km kanalizasiya şəbəkəsinin 80 km-lik hissəsinin tikintisi yekunlaşmışdır. Şəhərdə 119 çoxmənzilli yaşayış binasının daxili şəbəkəsi yenidən qurulmuş, 7 minə yaxın sayğac quraşdırılmışdır.

Gəncə şəhərində yaranacaq tullantı suları gələcəkdə Samux rayonu ərazisində inşa ediləcək və məhsuldarlığı sutkada 120 min kubmetr olacaq təmizləyici qurğuda zərərsizləşdiriləcəkdir.

Qeyd edək ki, Azərbaycan hökuməti və Almaniyanın KfW Bankının birgə maliyyələşdirdiyi "Açıq Kommunal İnfrastruktur Proqramı II" layihəsi Gəncə şəhəri ilə yanaşı, Şəki şəhərində də içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulmasını nəzərdə tutur.

# "Azərsu" ASC-nin 3 müəssisəsi müsabiqənin qalibi olmuşdur

*Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında (AHİK) 28 aprel Ümumdünya əməyin mühafizəsi gününə həsr olunmuş «Sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması üzrə ilin ən yaxşı müəssisəsi (təşkilatı)» Respublika müsabiqəsinin qaliblərinin mükafatlandırılması mərasimik eçirilmişdir.*

AHİK-in sədri, millət vəkili Səttar Mehbalıyev çıxış edərək bildirmişdir ki, Ümumdünya əməyin mühafizəsi günü ilk dəfə 1989-cu ildə ABŞ və Kanadada istehsalatda həlak olmuş işçilərin xatirəsini yad etmək üçün anım mərasimi kimi keçirilib. Azad Həmkarlar İttifaqları Beynəlxalq Konfederasiyası və Dünya Həmkarlar İttifaqları Konfederasiyaları layiqli əmək şəraiti yaradılması işinə diqqəti cəlb etmək məqsədilə həmin günü ümumdünya tədbiri günü elan ediblər. Azərbaycanda bu tədbir 2004-cü ildən etibarən hər il qeyd olunur. Onun sözlərinə görə, müəssisələrdə əməyin mühafizəsi və təhlükəsizliyi tədbirlərinin həyata keçirilməsinin əsas məqsədi işçilərin sağlamlığının, rifah halının və əmək məhsuldarlığının təmin edilməsindən ibarətdir.

Qeyd olunmuşdur ki, «Sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması üzrə ilin ən yaxşı müəssisəsi (təşkilatı)» müsabiqəsində respublika üzrə müxtəlif fəaliyyət sahələrini təmsil edən 1960-dan çox müəssisə və təşkilat iştirak etmişdir. 20 sahə üzrə həmkarlar ittifaqını təmsil edən 46 müəssisə və təşkilat daim yüksək göstəricilərə nail olduğuna görə müsabiqənin qalibi elan olunmuşdur.

"Sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması üzrə ilin ən yaxşı müəssisəsi" müsabiqəsində "Azərsu" ASC-nin 3 müəssisəsi – Mərkəzi Laboratoriya, "Sukanal" Elmi Tədqiqat və Layihə İnstitutu və "Ceyranbatan Su Təchizatı" İdarəsi qalib təşkilatlar sırasında olmuşdur. Həmin müəssisələrdə işçilərin fərdi mühafizə vasitələri ilə təminatı, normal iş şəraitinin yaradılması, təhlükəsizlik qaydalarına əməl edilməsi, istehsalatda bədbəxt hadisələrin baş verməməsi, əmək münasibətləri sahəsində qanunvericiliyə əməl olunması sahəsindəki işlər yüksək qiymətləndirilmişdir.




Tədbirin sonunda müsabiqənin qaliblərinə AHİK-in diplomları və qiymətli hədiyyələr təqdim olunmuşdur.

# "Yaşıl fəsil" ekoloji maarifləndirmə proqramı çərçivəsində Su günü keçirilmişdir

*Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksində "Yaşıl fəsil" ekoloji maarifləndirmə proqram çərçivəsində "Su günü" keçirilmişdir. Tədbir Azərbaycan Gənclər və İdman Nazirliyi, "Azərsu" ASC-nin Gənclər Klubunun dəstəyi, "Təbiət Dostları" Gənclər İctimai Birliyi tərəfindən təşkil olunmuşdur.*

Bakı Dövlət Universitetinin, Bakı Mühəndislik Universitetinin, Azərbaycan Dövlət İqtisad Universitetinin, Azərbaycan Turizm və Menecment Universitetinin, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının, Azərbaycan Texniki Universitetinin tələbələri, "Təbiət Dostları" GİB-nin üzvləri və su sektorunda çalışan gənc mütəxəssislər əvvəlcə kompleksdə suyun emal prosesi ilə tanış olmuşlar.

Ceyranbatan Su Təchizatı İdarəsinin rəis müavini Oruc Bayramov qurğu haqqında geniş məlumat vermiş, emal prosesdə istifadə olunan ən son texnologiyaların özəlliklərindən danışmışdır. Qeyd olunmuşdur ki, ölkə rəhbərliyinin su sektoruna göstərdiyi diqqət və qayğı nəticəsində Azərbaycan müasir su təmizləmə texnologiyalarına yiyələnmiş və əhalinin keyfiyyətli su təminatı üçün bu texnologiyalardan müvəffəqiyyətlə istifadə edilir.

SCADA otağı ilə tanışlıq zamanı məlumat verilmişdir ki, ən yeni texnologiyaların tətbiq edildiyi kompleksdə bütün texnoloji proseslər tam avtomatlaşdırılmışdır. Emal prosesinin məsafədən idarə edilməsi SCADA sistemi ilə həyata keçirilir.



Tədbirin seminar hissəsində "Azərsu" ASC Gənclər Klubunun üzvü Fuad Cavadzadənin "Suyun Bakı Səyahəti", Bakı Dövlət Universitetinin əməkdaşı Aytən Məhərrəmovanın "Qlobal İqlim Dəyişmələri və Ətraf Mühitə Təsirin qiymətləndirilməsi" adlı çıxışları maraqla qarşılanmışdır. Tədbirin sonunda "Təbiət Dostları" Gənclər Təşkilatının könüllüsü Elman Əsgərov təşkilatın yaranması və fəaliyyət istiqamətləri barədə məlumat vermiş və tədbirin təşkilinə görə minnətdarlığını çatdırmışdır.